| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | PSY 260, Ailə psixologiyası, 6 AKTS | |
| | Departament | Psixologiya | |
| | Proqram (bakalavr, magistr) | Bakalavr | |
| | Tədris semestri | 2025/2026-cı tədris ilinin payız semestri | |
| | Fənni tədris edən müəllim (lər) | Mələk Kərimova | |
| | E-mail: | mkerimova@khazar.org | |
| | Telefon: | - | |
| | Mühazirə otağı/Cədvəl | Neftçilər Korpusu | |
| | Məsləhət saatları | Dərsdən sonra | |
| | Kursun vebsaytı | Microsoft teams | |
| **Prerekvizitlər** | - | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson.<br>2. Prof.Dr. Oğuz E. Berksun (2013) “Aile ve eş terapileri”. Detay yayıncılıq<br>3. Lucy Vincent (2012) Neden aşık oluyoruz? Arya Yayıncılık (Çeviri: F.Kenan Zaimoğlu)<br>4. Əlizadə Ə.Ə. (1986) Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Maarif<br>5. A.Kurucan (2009) Boşanmaq üçünmü evlənirik? Bakı<br>6. Андреева Т.В.(2004) Семейная психология. СПб.:Речь<br>7. Minuchin, S. & Fishman, H. (1981). Family therapy techniques. Cambridge, MA: Harvard University Press.<br>8. Mirkin, M. (Ed.). (1990). The social and political contexts of family therapy. Boston: Allyn & Bacon.<br>9. Nichols, M. (1999). Inside family therapy: A case study in family healing. Boston: Allyn & Bacon.<br>10. Nichols, M. & Schwartz, R. (1998). Family therapy: Concepts and Methods. (4th Ed.). Boston: Allyn & Bacon.<br>11. Olson, D., De Frain, J., & Skogrand, L. (2019). Marriages and families: Intimacy, diversity, and strengths (9th Edition). New York, NY: McGraw Hill. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| | Digər | + | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
| | Aralıq imtahanı | 8-ci həftə | 30 |
| | Fəallıq | Semestr boyu | 5 |
| | Quiz | Noyabrın 2-ci həftəsi | 10 |
| | Ailə dəyərləndirməsi (keys dəyərləndirilməsi) | Noyabr-Dekabr | 20 |

| | | | |
|---|---|---|---|
| | Final imtahanı | yanvar | 40 |
| | Davamiyyət | Semestr boyu | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Sillabus “Ailə Psixologiyası” fənni üzrə standart kursun materiallarını özündə əks etdirir. Fənnin tədrisində şəxsiyyətin formalaşmasında ailənin rolu, ailə problemlərinin qarşısının alınması üçün psixoloji təhlillər və tövsiyələr, ailənin qorunması və ailədaxili konfiliktlərin həlli yolları, eləcə də digər ailə məsələləri əhatə olunur.<br>Kurs ailə nəzəriyyələri, ailə problemlərinin psixoprofilaktikası, cinsi tərbiyənin zəruriliyi, ailədə əllillik problemi, ailədə yaşanan makro və mikro travmalar, ailə üzvlərində psixopatologiyalar, qısqanclığın vs.kimi psixoloji məsələlərin təhlilini və onların aradan qaldırılması yolları mövzularını əhatə edir. | | |
| **Kursun məqsədləri** | Ailə ilə əlaqədar nəzəriyyələr haqqında anlayış qazandırmaq, o cümlədən ailə dəstək mexanizmlərinin anlaşılması, problem həll etmə bacarıqlarının formalaşması, ailə model və yanaşmalarını təhlil etmə bacarıqlarının formalaşdırmasını qarşısına məqsəd qoyur. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | 1. Evlilik və ailə nəzəriyyələrini öyrənərək analiz edə bilir.<br>2. Ailənin inkişaf mərhələləri və bu mərhələlərdə ünsiyyətin məzmunu təhlil etmək<br>3. Ailənin şəxsiyyətin inkişafı və formalaşmasında olan rolunu dəyərləndirmək<br>4. Nəsillərarası əlaqələrin ailə üzvlərinə təsirinin təhlilini elmi əsaslarla apara bilmək<br>5. Ailə ilə aparılacak psixoloji işin təşkilinə dair etik prinsiplərdən müvafiq şəkildə istifadə etmə bacarığını inkişaf etdirir.<br>6. Tədqiqatlarında elmi metod və baxış tərzini əsas tutaraq evlilik probelmlərini təhlil edir<br>7. Evlilik və ailə psixiologiyası sahəsində beynəlxalq tədqiqatlara müraciət edərək təhlil bacarığını formalaşdırırlar<br>8. Ailə sağlamlığının zəruriliyini elmi əsaslarla izah edir və qorunma yollarını bilir. | | |
| **Qiymətləndirmə Meyarları** | Davamiyyət: Dərslərin ənənəvi (üzbəüz) formatda keçirilməsi nəzərdə tutulur. Tələbə dərsin başlama saatından əvvəl auditoriyada olmalı və hər hansı bir problem yaşadığı halda, bu barədə əvvəlcədən ya dekanlığa, ya da fənn müəlliminə məlumat verməlidir.<br>Fəallıq: Semestr ərzində dərslərdə iştirak və müzakirələrə fəal iştirak tələb olunur. Tələbənin dərslərdə fikir bildirməsi və müzakirələrə aktiv şəkildə töhfə verməsi qiymətləndirmə prosesində nəzərə alınacaqdır.<br>Tapşırıq: Tələbə semestr ərzində bir ailəni (ailə üzvlərinin razılığı ilə) tədqiq etməli, ailə üzvləri arasındakı münasibətləri, onların psixi və fiziki sağlamlıq vəziyyətlərini, münasibətlər və sağlamlıq arasındakı əlaqələri təhlil etməlidir. Bu tədqiqat əsasında ailənin psixoloji və sağlamlıq portreti hazırlanmalı, həmçinin ailənin rifahının artırılması və inkişafı üçün təklif və model təqdim edilməlidir. Tədqiqat yazısının hazırlanmasında elmi üslub qaydalarına ciddi riayət olunmalıdır. Bundan əlavə, mövzu ilə bağlı müasir elmi məqalələr seçilib oxunacaq və bunlar əsasında təqdimat ediləcəkdir.<br>1. Ailə Üzvləri ilə Razılaşmanın Alınması və Etik Tələblərə Uyğunluq (3 bal) | | |

| | |
|---|---|
| | • 3 bal: Ailə üzvləri ilə razılıq yazılı və formal şəkildə alınmış, etik prinsiplərə tam riayət olunmuşdur.<br>• 2 bal: Ailə üzvləri ilə razılıq qeyri-rəsmi formada alınmış, etik qaydalara əsasən əksər tələblər yerinə yetirilmişdir.<br>• 1 bal: Razılıq alınmış, lakin etik prinsiplərin bir neçə aspekti nəzərə alınmamışdır.<br>• 0 bal: Ailə üzvlərinin razılığı tam alınmamışdır və etik qaydalara ciddi ziddiyyətlər mövcuddur.<br>2. Ailə münasibətlərinin təhlili (4 bal)<br>• 4 bal: Ailə üzvləri arasındakı münasibətlər və onların psixi/fiziki sağlamlıq vəziyyətləri ətraflı və dərin təhlil edilmişdir. Münasibətlər və sağlamlıq arasındakı əlaqələr kompleks şəkildə izah edilmişdir.<br>• 3 bal: Münasibətlər və sağlamlıq vəziyyətləri yaxşı təhlil edilmiş, lakin daha çox dərinliyə ehtiyac duyulur.<br>• 2 bal: Əsas münasibətlər və sağlamlıq vəziyyətləri müəyyən dərəcədə təhlil olunmuşdur, lakin təhlil səthidir<br>• 0-1 bal: Təhlil yetərincə detallı olmamışdır və əsas məsələlər üzərində dayanmamışdır.Münasibətləri təhlili yetərsizdir və ya yanlış məlumatlar əsasında qurulmuşdur.<br>•<br>3.Ailənin psixoloji portretinin hazırlanması (4 bal)<br>• 4 bal: Ailənin psixoloji və sağlamlıq portreti detallı və əsaslı şəkildə hazırlanmışdır, ailənin fərdi və kollektiv xüsusiyyətləri aydın şəkildə təsvir edilmişdir.<br>• 3 bal: Psixoloji və sağlamlıq portreti əhatəlidir, lakin müəyyən aspektlər dərin təhlil edilməmişdir.<br>• 2 bal: Portret kifayət qədər detallı deyil və əsas aspektlər əhatə olunmuşdur.<br>• 1 bal: Portret çox ümumi hazırlanmışdır və detallar çatışmır.<br>• 0-1 bal: Psixoloji və sağlamlıq portreti yetərsiz və ya qeyri-dəqiqdir.<br>4. Ailənin inkişafı və rifahı üçün təkliflər və model (4 bal)<br>• 4 bal: Təkliflər və inkişaf modeli elmi əsaslandırma ilə detallı şəkildə təqdim olunmuş və ailənin konkret problemlərinə yönəlmişdir.<br>• 3 bal: Təkliflər əhatəli və məntiqidir, lakin modelləşdirmə yetərincə dərin deyil.<br>• 2 bal: Təkliflər ümumi xarakter daşıyır və ailənin xüsusi problemlərinə yönəlməyib.<br>• 1 bal: Təkliflər çox ümumidir və tətbiq edilə bilməzdir.<br>• 0 bal: Təkliflər təqdim olunmamış və ya tamamilə uyğun olmayan şəkildədir.<br>5. Elmi Üsluba və Akademik Yazı Qaydalarına Uyğunluq (3 bal)<br>• 3 bal: Yazı elmi üsluba tam uyğun yazılmış, istinadlar düzgün göstərilmiş və tədqiqat yaxşı strukturlanmışdır.<br>• 2 bal: Yazı əsasən elmi üsluba uyğun olsa da, bəzi qrammatik və stilistik səhvlər mövcuddur.<br>• 1 bal: Yazı elmi üsluba qismən uyğun gəlir, lakin akademik qaydalara tam riayət edilməmişdir.<br>• 0 bal: Yazı elmi üsluba uyğun deyil və ya qaydalara əməl edilməmişdir. |

<table>
<tr><td></td><td colspan="2">6. Müasir Elmi Məqalələrin Seçimi və Təqdimat (2 bal)<br>• 2 bal: Seçilmiş məqalələr aktualdır və mövzu ilə əlaqəlidir, təqdimat yaxşı strukturlanmış və dəqiqdir.<br>• 1 bal: Seçilmiş məqalələr mövzu ilə əlaqəli olsa da, bəzi məqalələr daha uyğun ola bilərdi və təqdimat zəifdir.<br>• 0 bal: Seçilmiş məqalələr mövzuya uyğun deyil və təqdimatın keyfiyyəti qənaətbəxş deyil.<br><br>İmtahanlar: Tələbənin imtahanda iştirakı və ya imtahandan azad olunması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll edilir. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkün ola bilər. Tələbə, kursu uğurla tamamlaması üçün ümumi 60% və daha yüksək bal toplamalıdır. Əks halda, tələbə kursu yenidən keçməli olacaqdır.<br>İmtahan qaydalarının pozulması: İmtahan zamanı mövcud qaydaların pozulması (köçürmə cəhdləri, vaxtında təhvil verməmə və s.) ciddi şəkildə qiymətləndiriləcək və fakültə rəhbərliyinin qərarlarına uyğun olaraq müvafiq tədbirlər görüləcəkdir.</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="2">Tələbələrdən dərsə hazırlıqlı gəlməsi gözlənilir.<br>Dərsdə keçirilən mövzu ilə əlaqədar hissələri izah etmək, verilən ədəbiyyatı oxumaq, mövzu ilə əlaqədar suallara cavab vermək lazımdır. Qrup içi müzakirələrdə fəal iştirak etmək, verilən tapşırıqları yerinə yetirmək əsasdır. Aralıq və final imtahanında köçürmək qadağandır. Köçürən tələbələrin nəticələri ləğv olunur.<br>Tələbələrin sinifdə etik olmayan müzakirə və davranışları qəti qadağandır.</td></tr>
<tr><td colspan="3">Cədvəl</td></tr>
<tr><td>Həftə</td><td>Fənnin mövzuları</td><td>Dərslik/Tapşırıqlar</td></tr>
<tr><td>1</td><td>Ailə psixologiyasına giriş. Ailə Psixologiyasının Tərifi<br>Ailə Psixoloqu Olmaq<br>Ailə bütövlüyünü şərtləndirən səbəblər.<br>Evlilik və seçim<br>Ailə anlayışı və funksiyaları</td><td>Thoburn, J. W., & Sexton, T. L. (2016). Family psychology: Theory, research, and practice. Praeger. (səh. 3–19)<br>Gladding, S. T. (2019). Family therapy: History, theory, and practice (7th ed.). Pearson.</td></tr>
<tr><td>2</td><td>Ailə Psixologiyasında Sistem Epistemologiyası<br>Ailə Psixologiyasının Əsasını Təşkil Edən Sistem Epistemologiyası<br>Qarşılıqlı Münasibətlər Sisteminin Quruluşu və Prosesləri<br>Mədəniyyət və Müxtəlifliyin Sistem Düşüncəsində Əhəmiyyəti<br>Bağlanma nəzəriyyəsi və bağlanmanın növləri<br>Bağlanmanın gələcək münasibətlərdəki rolu.</td><td>Thoburn, J. W., & Sexton, T. L. (2016). Family psychology: Theory, research, and practice. Praeger. (səh. 21–44)<br>Prof.Dr. Oğuz E. Berksun (2013) “Aile ve eş terapileri”.Detay yayıncılıq<br>Gladding, S. T. (2019). Family therapy: History, theory, and practice (7th ed.). Pearson.</td></tr>
</table>

| | | |
|---|---|---|
| 3 | Ailə Psixologiyasında nəzəriyyələr və Sistemlər<br>Ailə Psixologiyasında Nəzəriyyələrin Rolu<br>Sistem Baxışı ilə Ailələr, Problemlər və Dəyişikliklər<br>Ailə Münasibət Sistemlərinə Sistem Baxışı<br>Klinik Problemlərə Sistemli Yanaşma | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 45-59)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 4 | Ailə Psixologiyasının Elmi Əsasları<br>Ailə Psixologiyasında Tədqiqat Sahələri<br>Ailə Psixologiyasında Tədqiqat Növləri<br>Ailə Psixologiyası.<br>Klinik Müdaxilələrinin Qiymətləndirilməsi.<br>Evlilik və ailə dinamikalarını anlama.<br>Evliliyə hazırlık mərhələsi | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 61-83)<br><br>Nichols, M. & Schwartz, R. (1998). Family therapy: Concepts and Methods. (4th Ed.). Boston: Allyn & Bacon.<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 5 | Ailə Psixologiyasında anlayışların təhlili<br>Evlilik məmnuniyyəti, sağlamlıq və dayanıqlılıq anlayışları və bu sahədəki tədqiqatların təhlili<br>Ailə Psixologiyasında Terapevtik Dəyişiklik<br>Klinik Müdaxilələr və Dəyişiklik Prosesləri | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 61-83)<br><br>Nichols, M. & Schwartz, R. (1998). Family therapy: Concepts and Methods. (4th Ed.). Boston: Allyn & Bacon.<br><br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 6 | Klinik Qiymətləndirmə və İşin Planlaşdırılması<br>İşin Planlaşdırılması və Klinik Qiymətləndirmə<br>Ailə Psixologiyasında Klinik Qiymətləndirmənin Rolu<br>İşin Planlaşdırılması və Strategiyaların İnkişafı | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 109-123)<br><br>Nichols, M. & Schwartz, R. (1998). Family therapy: Concepts and Methods. (4th Ed.). Boston: Allyn & Bacon.<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 7 | Ailə-Yönümlü Klinik Müdaxilə Modelləri I<br>Nəzəriyyəyə Əsaslanan Modellər | Prof.Dr. Oğuz E. Berksun (2013) “Aile ve eş terapileri”.Detay yayıncılıq<br>(1-40) |

| | | |
|---|---|---|
| | Dəlil-Bazalı Klinik Müdaxilə Modelləri<br><br>Müxtəlif ailə tipləri və ailə tərbiyəsininn uşaqlara təsiri<br><br>Ailədə münaqişə və münaqişəli vəziyyətlə başetmə | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 125-148)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 8 | **Aralıq İmtahanı** | |
| 9 | Ailə-Yönümlü Klinik Müdaxilə Modelləri II<br>Nəzəriyyə və Sübut əsaslı Ailə Modelləri üzrə Qrup Təqdimatları<br>Əsas fərqlər və praktik tətbiqlər<br>Onların effektivliyinə dair tənqidi fikirlər | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 149-173)<br><br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 10. | Cütlüklər üçün klinik Müdaxilə Modelləri<br>Cütlük üçün Nəzəriyyəyə Əsaslanan Modellər | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 149-173)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 11. | Cütlük Yönümlü Klinik Müdaxilə Modelləri II<br>Cütlük üçün Dəlil-Bazalı Yanaşmalar<br>Cütlük Terapiyasının Gələcək İstiqamətləri | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 149-173)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 12. | Ailə Psixologiyasında Xüsusi Sahələr<br>Seksual Terapiya<br>Ailələrdə boşanma,maddə istifadəsi və müxtəlif problemlər. | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 177-189)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 13. | Ailə Psixologiyasında Etik məsələlər<br>Ailə Psixologiyasında Etika<br>Gələcək Ailə Psixoloqlarının Təlimi | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 191-210)<br>Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 14 | Ailə Terapiyasında Caselər<br>Real ailə terapiyası hallarının analizi | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (səh. 191-210) |

| | | |
|---|---|---|
| | İstifadə edilən müdaxilələrin tənqidi qiymətləndirilməsi<br>Nəzəriyyənin praktikaya tətbiqi | Gladding, S. T. (2019). *Family therapy: History, theory, and practice* (7th ed.). Pearson. |
| 15 | Ailə Psixologiyasında tədqiqat və caselərin analizi | Thoburn, J. W., & Sexton, T. L. (2016). *Family psychology: Theory, research, and practice*. Praeger. (təkrar baxmaq) |
| 16 | **Final İmtahanı** | |